**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNTELLEKTUAL İNKİŞAFI ÜZRƏ İŞİN SİSTEMİ

İxtisas: 5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
Elm sahəsi: Pedaqogika

İddiaçı: **Səlahət Şövkət qızı Musayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı– 2021**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** *p. e. d., professor*
**Yəhya Şəfi oğlu Kərimov**

**Rəsmi opponentlər:** *p. e. d., professor*
**Fərahim Balakişi oğlu Sadıqov**

*p. ü.e. d., professor*
**Hümeyir Hüseyn oğlu Əhmədov**

*p. ü. f.d., dosent*
**Sevinc Sərdar qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15. Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: t. ü. e. d., professor
_______________ **Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi: p. ü.f. d., dosent
_______________ **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: p. e. d., professor
_______________ **Fərrux Abbas oğlu Rüstəmov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məktəbəqədər təhsilin inkişafı bir çox cəhətdən müasir sosial-iqtisadi vəziyyətlə, pedaqogikanın inkişaf tendensiyaları ilə müəyyənləşdirilir. Məktəbəqədər təhsilin məqsəd və vəzifələrinin dəyişməsi, məzmununun yeniləşməsi, onun həyata keçirilməsində şəxsiyyətyönlü texnologiyalardan səmərəli şəkildə istifadə ilə səciyyələnir. Cəmiyyətin tələbatından asılı olaraq belə sistem dəyişiklikləri yeni konseptual yanaşmaların tətbiqinə imkan yaradır. Bununla əlaqədar olaraq müxtəlif yaşlı uşaqların imkanları araşdırılır, onların ümumi və xüsusi bilik, bacarıq və qabiliyyətlərinin səviyyəsi müəyyən edilir.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "*Uşaqlar bizim gələcəyimizdir!... Onların hərtərəfli inkişaf etməsi, intellektual səviyyələrinin artırılması, milli-mənəvi dəyərlərimizin mənimsənilməsi, vətənpərvərlik hissinin formalaşması cəmiyyətimizin arzusudur...*"[1].

Cəmiyyətdə intellektual səviyyəsi yüksək olan insanların sayı artdıqca, o, inkişafa doğru irəliləyir. İntellektual inkişaf böyüməkdə olan nəslin dərketmə qabiliyyətinin bütün sahələrdə təzahür etməsidir. Bu müdrik fikir hazırda qloballaşan və elmi-texniki sıçrayışın ən yüksək mərhələsini yaşayan dünyada öz aktuallığı ilə seçilir. Ona görə də Azərbaycanda təhsilin bütün səviyyələrində olduğu kimi, məktəbəqədər təhsilin də modernləşdirilməsi vacibdir. Bununla bağlı məktəbəqədər dövrdə müxtəlif yaşlı uşaqların intellektual bilik və bacarıqlarının hansı səviyyədə inkişaf etməsinə aydınlıq gətirilməsi zəruridir. Fəaliyyətin bütün növlərinə yaradıcı yanaşaraq uşağa müstəqillik və sərbəst seçim imkanı verməklə, onda müxtəlif qabiliyyətlərin inkişafına şərait yaradılmalıdır. Bu qabiliyyətlərin ən əhəmiyyətlisi dərketmə və intellektual inkişafdır.

İntellektual inkişaf dedikdə, uşaqların təhlil-tərkib, müqayisə, qruplaşdırma, ümumiləşdirmə kimi fikri əməliyyatları mənim-

---

[1] Əliyev, H.Ə. Uşaqlar bizim gələcəyimizdir! 1 İyun uşaqları müdafiə gününə həsr olunmuş beynəlxalq uşaq musiqi festivalında çıxışı // Azərbaycan müəllimi. 1997, 14 oktyabr.

səmələri, təlim fəaliyyəti prosesində əşya və hadisələr arasında səbəb-nəticə əlaqələrini təmin etməyi bacarmaları başa düşülür.

Tədqiqatımızın əsasında körpəlik dövründən başlayaraq uşaqların intellektual inkişafının yollarını araşdırmaq, onların I sinifdə müvəffəqiyyətlə təlim almalarını təmin etmək durur. Bu baxımdan araşdırmalarımız məktəbəqədər müəssisələrdə, ailələrdə uşaqların intellektual inkişafına həsr olunmuşdur. Tədqiqata cəlb edilən problem XXI əsrin əvvəllərindən etibarən məktəbəqədər təhsilin inkişaf etdirilməsinə dair hüquqi-normativ dövlət sənədlərində də öz əksini tapmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2010-cu il tarixli, 4 nömrəli qərarı ilə təsdiq olunmuş "Məktəbə hazırlığın təşkili qaydalarına dair" qərarda deyilir: *"İstedadlı uşaqların aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi, uşağın məktəb təliminə hazırlığı zamanı, hər şeydən əvvəl, onun aşağıdakıları əhatə edən fiziki, şəxsiyyətyönlü, intellektual və sosial hazırlığı nəzərdə tutulur..."*[2].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli 137 nömrəli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"nda, həmçinin təkmilləşdirilərək, 2019-cu il 08 avqust tarixdə təsdiq edilmiş "Məktəbəqədər təhsilin dövlət standartı"nda müəyyənləşdirilmiş təlim nəticələrində uşaqların təhlil-tərkib, ümumiləşdirmə, səbəb-nəticə əlaqələrinin qurulması və s. kimi intellektual inkişaf göstəriciləri diqqət mərkəzində saxlanılır[3]

Uşağın intellektual inkişafı üzrə iş məktəbəqədər dövrün bütün mərhələlərində aparılır. Bu hazırlıq heç də uşaqlara birdən-birə xüsusi bilik və bacarıqlar vermək istiqamətində deyil, ilk növbədə onların əqli qabiliyyətləri və idrak marağının (müşahidə etmək, təhlil

---

[2] "Məktəbə hazırlığın təşkili qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı.https://baku.edu.gov.az/az/page/234/707

[3] "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı. http:/ /eqanun.az/ framework/ 43192

etmək, müqayisə aparmaq, ümumiləşdirmək, əqli nəticəyə gəlmək) inkişafı istiqamətində həyata keçirilir.

Böyüklər uşağın məktəbə hazırlığını onlara verilən biliklərin məcmusu kimi anlayır, buna görə də ona ilkin oxu, yazı və hesablama vərdişlərini verməyə çalışırlar. Onlar uşağa mümkün qədər çox "ağıllı" məlumatlar vermək istəyirlər. Halbuki təhsilin müvəffəqiyyətini yalnız bu müəyyən etmir. Ən başlıcası uşağın təlim əməyinə hazırlanmasıdır. Məktəb təkcə "savadlı" uşaqları deyil, həm də fiziki və psixoloji cəhətdən sağlam, dözümlü və hazırlıqlı uşaqları gözləyir.

Azərbaycanda pedaqoji fikir tarixində məktəbəqədər yaşlı uşaqların inkişafının müxtəlif sahələri üzrə bir sıra tədqiqatlara rast gəlinir. Belə ki, Y.Ş.Kərimov, R.N.Mursaqulova, X.İ.Səlimxanova, Z.İ.Vəliyeva, L.K.Cəfərova, Z.Ə.Zeynalova, M.A.İbadova, T.B.Sadıqova, A.M.Məmmədova, Ş.A.Baxışova, Ş.Q.Əlyeva, S.M.Sadıqova, C.A.Orucova və b. məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin müxtəlif sahələri üzrə tədqiqatlar aparmışlar. X.İ.Səlimxanova "Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına şifahi xalq yaradıcılığı nümunələrinin təsiri", L.K.Cəfərova "Məktəbəhazırlıq qrupunda uşaqların ictimai həyat hadisələri ilə tanışlığı üzrə işin sistemi", T.B.Sadıqova "Uşaqların məktəb təliminə hazırlanmaları prosesində didaktik oyunlardan istifadənin imkan və yolları", Ş.Q.Əliyeva "Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsasları", A.M.Məmmədova "Beşyaşlıların məktəbə hazırlanması üzrə işin sistemi" və s. mövzularda dissertasiyalar müdafiə etmişlər.

Bu günədək məktəbəqədər yaşlı uşaqların ümumi intellektual bacarıqları əsas tədqiqat obyekti olmamışdır. Bizim ideyamız məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı üzrə işin sistemini yaratmaqdan, bu yaş dövründə intellektual inkişafın modelini müəyyən etməkdən ibarətdir. Tədqiqatın ideyası aşağıdakı ziddiyyətli problemlərin həllini zəruri etmişdir: 1) ibtidai məktəbin tələbi ilə məktəbəqədər yaşlı uşaqların inkişafı və onların müntəzəm təlimə hazırlığı vəziyyəti arasında uyğunsuzluq; 2) məktəbəqədər yaşlı uşaqların intellektual inkişaflarının təmini zərurəti və onların formalaşdırılması probleminin kifayət qədər işlənilməməsi arasında

təzad; 3) intellektual bacarıqların formalaşdırılmasının nəzəri səviyyəsi və onun məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyəti problemi.

Problemin aktuallığını nəzərə alaraq "Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı üzrə işin sistemi" mövzusunda dissertasiya üzərində işləməyi məqsədəuyğun hesab etdik.

**Tədqiqatın obyektini** məktəbəqədər yaşlı uşaqların inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı üzrə işin sistemi təşkil edir.

**Tədqiqatın məqsədi** məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı üzrə işin mükəmməl sistemini işləyib hazırlamaqdır.

**Tədqiqatın vəzifələri:**

Tədqiqatın məqsədinə və işçi fərziyyəsinə əsasən aşağıdakı vəzifələri irəli sürülmüşdür:

-məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı ilə əlaqədar metodik, pedaqoji və psixoloji ədəbiyyat üzrə araşdırmalar aparmaq;

- məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının mahiyyətini aydınlaşdırmaq;

-proqram və təlim vasitələrini intellektual inkişaf baxımından təhlil etmək;

-məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının prinsip, forma, vasitə, metod və priyomlarını müəyyənləşdirmək;

-məktəbəqədər müəssisələrdə uşaqların idrakı fəallığının təmin edilməsi vasitəsi kimi inkişafetdirici mühitin imkanlarını öyrənmək;

-uşaqların intellektual inkişafının məktəbdəki təlim prosesinə təsirini aşkara çıxarmaq;

-müasir dövrdə məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının perspektivlərini müəyyənləşdirmək.

**Tədqiqatın metodoloji əsasını** klassiklərin pedaqogika və psixologiya elminin görkəmli alimlərinin şəxsiyyətin inkişafı və tərbiyəsinə, uşaqların idrak və inkişaf nəzəriyyəsinə dair fikirləri, insanı fəaliyyət və ünsiyyətin subyekti kimi təsvir edən nəzəri müddəaların məcmusu, məktəbəqədər təhsilə dair normativ və hüquqi dövlət sənədlərinin məzmunu, xalq pedaqogikasının tərbiyəyə dair nümunələri təşkil edir.

Aşağıdakı **tədqiqat metodlarından** istifadə edilmişdir: nəzəri təhlil, sənədlərin öyrənilməsi, pedaqoji müşahidə, müsahibə, anket sorğusu, eksperiment, müxtəlif fəaliyyət növlərinin təhlili.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı onlarda məntiqi düşüncənin və rabitəli nitqin inkişafını təmin edir.

2. Məktəbəqədər yaşlı uşaqların intellektual hazırlığının pedaqoji-psixoloji əsaslarını onlarda nitqin, ünsiyyətin, dərketmənin, bilik bazasının genişlənməsi və ümumi qabiliyyətlərinin inkişafı təşkil edir.

3. Məktəbəqədər yaşlı uşaqlarda idrak proseslərinin inkişafı onlarda fiziki, sosial-emosional, estetik və yaradıcı qabiliyyətlərin inkişafını təmin edir.

4. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimi formalaşmasında və intellektual cəhətdən inkişafında ailə mühiti mühüm rol oynayır.

5. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimi formalaşmasında və intellektual cəhətdən inkişaf etməsində tərbiyəşi-müəllimin şəxsi nümunəsi əhəmiyyətli rol oynayır.

**Tədqiqatın elmi yeniliyi**:

- məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının və pedaqoji şərtlərinin mahiyyəti aydınlaşdırılmış;
- məktəbəqədər müəssisələrdə uşaqların intellektual inkişafının təmin edilməsi ilə əlaqədar təlim prosesinin texnologiyası işlənilmiş;
- uşaqların təfəkkürünün fəallaşdırılması üçün inkişafetdirici mühitin əhəmiyyəti əsaslandırılmış;
- məktəbəqədər dövrdə intellektual inkişafın imkanları, həcmi, məzmunu, işin forma və yolları müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, irəli sürülən nəzəri fikirlər, əldə edilmiş müddəalar məktəbəqədər təhsil müəssisələrində uşaqların intellektual inkişaf sistemini yaradaraq, tərbiyəçiləri planlı şəkildə iş aparmağa yönəldir. Bundan pedaqoji təmayüllü ali və orta ixtisas məktəblərində istifadə etmək mümkündür.

**Tədqiqatın praktik əhəmiyyəti:**

1. Tədqiqat zamanı əldə olunan nəticə və irəli sürülmüş ideyalar məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının səmərəli

təşkilinə imkan verəcəkdir.

2. Dissertasiyada göstərilən iş sistemindən, prinsip, vasitə, metod və priyomlardan məktəbəqədər təhsil müəssisələrinin rəhbər işçiləri, metodistlər və tərbiyəçilər, ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələri, valideynlər istifadə edə biləcək, müxtəlif yaş qruplarında təklif olunan metodika üzrə iş aparmağa şərait yaranacaqdır.

**Tədqiqatın aprobasiyası və tətbiqi:** Təklif olunan metodika ixtisasartırma kurslarında tərbiyəçilərə təqdim edilmişdir. Dissertasiyada nəzərdən keçirilən problemlə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının məsləhət bildiyi jurnallarda 13 və xarici ölkədə 1 məqalə nəşr olunmuşdur. İddiaçı, həmçinin beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmiş, məruzələri, 4 konfrans materialı (o cümlədən 2-i xaricdə) nəşr olunmuşdur. Bundan başqa, iddiaçı həmmüəlliflərlə birgə "Uşaq bağçalarında gəzintilərin təşkili" (Bakı: Apostrof, 2011), "Uşaq bağçasının müdirinin stolüstü kitabı "(Bakı: Apostrof, 2011) "Məntiqi təfəkkürün inkişafı" (Bakı: "Didaktika", 2014), Müntəxəbat (Böyük qruplar üçün) (Bakı: Bakı uşaq nəşriyyatı adlı metodik vəsaitlər hazırlamışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya girişdən, 10 paraqrafı özündə birləşdirən iki fəsildən, nəticə və isti fadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Giriş –17312 işarə və 10 səhifə, I fəsil – 125007 işarə və 76 səhifə, II fəsil – 125244 işarə və 68 səhifə, nəticə - 4521 işarə və 3 səhifə, istifadə edilmiş ədəbiyyat siyahısı -20875 işarə və 15 səhifədən, dissertasiya işi ümumilikdə 260220 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, məqsədi və vəzifələri açıqlanır, həmçinin istifadə olunmuş tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, nəticələri barədə yığcam məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Problemin ümumi məsələləri"** adlanır. Bu fəsil beş paraqrafdan ibarətdir. ***"Problemin mahiyyəti və məzmunu"*** adlı birinci paraqrafda göstərilir ki, cəmiyyətin

həyatındakı yeniliklər belə bir qənaətə gəlməyə əsas verir ki, intellektual inkişaf anlayışını gündəmə gətirmək zərurəti yaranmışdır. İntellektuallıq intellektual tərbiyə və inkişaf nəticəsində əldə edilə bilər. Uşağın hərtərəfli inkişafı intellekti yaradır. İntellekt fərddir.

İntellektuallıq intellektə xas olan xüsusiyyətdir. İntellektual keyfiyyətlər dərketmə qabiliyyətinin məhsuludur. Onu insan öz həyatı prosesində ətraf mühitə olan marağı sayəsində qazanır. Bu hadisə həyatın ilk günündən başlayır. İntellekt sözünün mənasına müxtəlif baxışlar mövcuddur. İntellekt latın dilində "*intelleksuz*" sözündən götürülməklə anlama, anlaşma mənasında başa düşülür. Bu söz şəxsiyyətin əqli qabiliyyətinin, inkişafının nisbətən mükəmməl quruluşudur.

İntellekt barədə müxtəlif mənbələrdə bir-birinə oxşar və fərqli fikirlər söylənilmişdir. XX əsrin məşhur psixoloqu J.V.Piaje demişdir:"*İntellekt əxlaqın ümumi qabiliyyətinə bərabərdir və onun idarəedicisidir*"[4].

Uşaqların intellektual hazırlığına konkret bilik ehtiyatı, müəyyən dünyagörüşü, əsas qanunauyğunluqların anlaşılması daxildir. Uşaqlarda öyrənməyə həvəs, hissi inkişafın kifayət qədər yüksək səviyyəsi, həmçinin obrazlı təfəkkürün, təsəvvürün, yaddaşın, təxəyyülün, nitqin, bir sözlə bütün psixi proseslərin inkişafı daxildir.

Apardığımız araşdırmalar zamanı aydın oldu ki, bir çox xarici mütəxəssislər ontogenezdə *intellektin* inkişafı prosesində iki tərəfi vurğulamışlar: 1) intellektin daxilinin genişlənməsi, uşağın yeni hərəkətləri mənimsəməsi və bu hərəkətləri keyfiyyətli dəyişməsi; 2) düşünmə qabiliyyətinin mərhələlərinin dəyişməsi.

Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı çox əhəmiyyətlidir. Bu zaman müvəffəqiyyətli təlim fəaliyyəti üçün vərdişlər formalaşır. İntellektual cəhətdən inkişaf etmiş məktəbəqədər yaşlı uşaqlar yeni materialı tez mənimsəmək və yadda saxlamaq qabiliyyətinə yiyələnirlər. Təcrübənin göstərdiyi kimi, onlarda oxumaq həvəsi daha güclü olur.

---

[4] Пиаже, Ж.В. Избранные психологические труду: психология интеллекта. Генезис числа у ребенка. Логика психология / Ж.В. Пиаже. -Москва: Просвещение, -1969. с.110

Deməli, intellektual inkişaf – məntiqi düşüncənin və nitqin inkişafıdır. Buna nail olmaq üçün ilk növbədə uşaqda öyrənmək arzusu formalaşdırılmalıdır. Bu yaş dövründə uşaq tədricən elmi biliklərin əsaslarına yiyələnir.

Məktəbəqədər yaşlı uşağın intellektual inkişafının əsasında diferensial qavrayış, əyani-hərəki və əyani-obrazlı təfəkkürün inkişafı, dünyanı düzgün dərk etmək dayanır. İntellektual inkişafın mahiyyəti uşaqların idrak proseslərinin, əqli qabiliyyətlərinin inkişafı, əsas qanunauyğunluqları anlamaları, dünyagörüşünün formalaşması, biliklər bazasının genişlənməsi ,onların məktəbdə oxuyarkən yüksək göstəricilər əldə etmələri kimi başa düşülməlidir.

Fəslin ikinci paraqrafı ***"Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının pedaqoji-psixoloji əsasları"*** adlanır.

Uşağın intellektual inkişafı tükənməz bir prosesdir. Bir çox psixoloqlar hesab edirlər ki, uşaqlar böyüklərə nisbətən daha fərqli tərzdə düşünürlər. Böyüklər, adətən, körpələrin və kiçik uşaqların diqqət çəkən intellektual bacarıqlarını gözdən qaçırırlar, Müasir tədqiqatçılar sübut etdilər ki, körpə uşaqlar daim düşünür və ətraf aləmi öyrənirlər. Onların fikrincə yeni doğulmuş körpələr də fəal surətdə informasiya alaraq ətraf aləmi öyrənirlər. Dünyaya yenicə göz açmış körpədə ilk günlərdən psixi inkişafa doğru irəliləyiş başlayır. Uşaqların intellektual inkişafları üçün aşağıdakılar nəzərdə tutulmalıdır: müqayisəli qavrayış; analitik təhlili təfəkkür; nümunəni təsəvvürə gətirərək tətbiq etmək; mühitə səmərəli yanaşma zamanı fantaziyanın rolunun azalması; məntiqi yaddaş; biliyə maraq, əlavə səylərin hesabına yeni biliklərin alınmasına həvəs; danışığın eşitmə qabiliyyətinə təsiri, dərketmə və tətbiqetmə qabiliyyətinin simvolunu başa düşmək; əlin xırda əzələlərini və gözün koordinasiyasını inkişaf etdirmək.

Deməli, məktəbəqədər yaşlı uşaqların intellektual hazırlığının pedaqoji - psixoloji əsaslarını uşaqların nitqinin, ünsiyyət, dərketmə, ümumi qabiliyyətlərin inkişafı və biliklər bazasının genişlənməsi təşkil edir. Əgər uşaq bu keyfiyyətlərə yiyələnərsə, o, psixoloji cəhətdən məktəbə tam hazır olar. Bu da ibtidai siniflərin tələbləri ilə məktəbəqədər müəssisənin təlim prosesi arasında bir uzlaşma yaradar.

Fəslin ***“Pedaqoji, psixoloji və metodik ədəbiyyatda problemin qoyuluşu”*** adlanan üçüncü paraqrafında diqqətə çatdırılan məsələlər bunlardır: Metodik ədəbiyyatda problemin qoyuluşunu araşdırarkən məlum oldu ki, məktəbəqədər yaş dövründə uşaqların qazandıqları bilik və bacarıqlar onların intellektual inkişafına səbəb olur. L. Cəfərova və K. Məmmədovanın hazırladıqları “Məktəbəqədər təhsilin yeni məzmun xüsusiyyətləri” adlı metodik tövsiyədə intellektual inkişafa çatmış, məktəb təliminə hazır uşaqların aşağıdakı bilik və bacarıqlara yiyələnmələri tələb olunur: müqayisə əsasında təhlil-tərkib aparmaqla, hadisələr arasında səbəb və nəticə əlaqələrinin təhlili; ixtiyari və davamlı diqqətin formalaşması; böyük, kiçik və hissi motor hərəkətlərin inkişafı; sanitar-gigiyenik qaydalara əməl olunması; davranış etiketlərinin yerinə yetirilməsi; estetik bacarıqların, təsviri incəsənət, musiqi duyumu, applikasiya işi və s. formalaşdırılması; sosial münasibətlər qurma bacarığı; hərflərin (çap və kəsmə əlifba ilə) tanınması; ifadəli və aydın nitq qabiliyyəti; sadə məntiqi məsələləri həll etmək bacarığı; biliklərin təfəkkürə əsaslanaraq mənimsənilməsi; fikirlərin dəqiq və məntiqli ifadəsi.

Deyilənlərdən belə bir nəticəyə gəlmək mümkündür ki, uşağın intellektual bacarıqları həm planlı, həm də məqsədyönlü inkişafdan asılı olaraq yaranır. Müasir dövrdə sosial inkişafın yeni istiqamətləri məktəbəqədər yaşlı istedadlı uşaqların təhsilinə yeni prizmadan baxmağı tələb edir. Apardığımız tədqiqatlar nəticəsində belə qənaətə gəlirik ki, uşaqların intellektual inkişafını planlı şəkildə həyata keçirmək üçün onun vasitələri dəqiq müəyyənləşdirilməlidir.

Alimlərin fikirlərinə əsaslanaraq belə bir nəticəyə gəlirik ki, məktəbəqədər yaşlı uşaqlar ətraf aləmdəki cisim və hadisələrə maraq göstərdikcə onlar haqqında yeni biliklərə yiyələnirlər, nəticədə onların təfəkkürü, nitqi inkişaf edir. Onlar, əşya və hadisələri dərk etməyə başlayırlar. Bu zaman onların daxili, həmçinin xarici nitqi işə düşür, idrak prosesləri hərəkətə gəlir. Nəticədə uşaqların əqli və intellektual səviyyəsi inkişaf edir.

Fəslin dördüncü paraqrafı ***“Proqram və təlim vəsaitlərində problemin qoyuluşu”*** adlanır. Bu paraqrafda diqqət yetirilən məsələlər aşağıdakılardır: Məktəbəqədər təhsil proqramının (kurikulumun) ən üstün cəhətlərindən biri də onun nəticəyönlü

olmasıdır. Kurikulumda məzmun nəticələr formasında verilmişdir. Bu isə tərbiyəçinin əldə edəcəyi nəticəni əvvəlcədən görməsinə imkan yaradır. Hər iki sənəddə uşaqların intellektual səviyyələrinin artırılmasından söhbət gedirsə də, ənənəvi proqramda bu bir qədər səthi, yarı-yarımçıq xarakter daşıyırdı. Bu, təlimin təşkili prosesində tərbiyəçinin avtoritar rolu ilə əlaqədardır.

Yeni proqramda uşaqların intellektual inkişafının vasitə və yolları göstərilir. Bu, dövlət səviyyəsində müəyyən edilmiş milli standartlardan ibarətdir. Ənənəvi proqramda məktəbəqədər yaşlı uşaqlara İKT biliklərinin verilməsi məsələsinə diqqət yetirilmədiyi halda, kurikulum bu yenilikləri özündə ehtiva edir. Hazırda bir çox məktəbəqədər təhsil müəssisələrində istifadə edilən, “ƏlƏddin-1” kompüter qurğusu bilavasitə uşaqların intellektual inkişafına xidmət göstərir. Bununla yanaşı, uşaqlar üçün nəzərdə tutulmuş İKT biliklərinin zənginləşdirilməsinə dair texniki vəsaitlər gündən-günə təkmilləşdirilir.

XXI əsrin uşaqlarının inkişafına yönələn proqram və təlim materiallarının ümumi məzmunu təhsilin humanistləşdirilməsinə və humanitarlaşdırılmasına, yeni pedaqoji təfəkkürün formalaşmasına istiqamətləndirilmişdir. Bu vəsaitlərdən istifadə edən tərbiyəçi təlim prosesinin məqsədini və məzmununu düzgün müəyyənləşdirə biləcək, onun elmi-nəzəri səviyyəsi, metodik bilikləri, səriştəliliyi artacaq. Bu isə tərbiyəçiylə uşaq arasında əməkdaşlığa təsir göstərəcək, balacaların təfəkkür qabiliyyətinin, şəxsi keyfiyyətlərinin, həyati bacarıqlarının formalaşmasına, intellektual qabiliyyətlərinin inkişafına imkan yaradacaq.

I fəslin ***“Problemlə əlaqədar məktəbəqədər təhsil müəssisələrində vəziyyət”*** adlanan beşinci paraqrafında göstərilir: problem baxımından vəziyyəti daha dəqiq öyrənmək məqsədilə müşahidələrdən, uşaqlarla fərdi müsahibələrdən geniş istifadə olunmuşdur. Bakı şəhərinin 199 və 236 nömrəli məktəbəqədər təhsil müəssisələrində, 235 nömrəli xüsusi körpələr evi-uşaq bağçasında, “Nərgiz” və “İlk addım” özəl uşaq bağçalarında, Mingəçevir şəhərindəki 10 və 19 nömrəli körpələr evi-uşaq bağçalarında, Göyçay şəhərlərindəki 4 nömrəli körpələr evi-uşaq bağçasında araşdırma aparıldı.

Tədqiqata təxminən eyni səviyyəli qabaqcıl və yaradıcı tərbiyəçilər cəlb olunmuşdular. Məktəbəqədər təhsil müəssisələrində uşaqlarda intellektual bacarıqların formalaşdırılması üzrə işin sistemini müəyyənləşdirmək, bu sahədəki vəziyyəti öyrənmək məqsədilə məşğələ prosesində və məşğələdənkənar vaxtlarda müşahidələr aparıldı.

Müşahidə və sorğunun təhlili belə qənaətə gəlməyə əsas verir: uşaqların intellektual inkişafı metodik işlərə nəzarət və rəhbərlik müasir dövrün tələbləri baxımından qənaətbəxş deyil; tərbiyəçilərin əksəriyyəti problemlə əlaqədar işi əsasən, sistemsiz aparır, onun inkişafı qayğısına qalmır, təlim prosesinin məqsədini və məzmununu düzgün müəyyənləşdirməkdə çətinlik çəkirlər; verilən biliklər, məlumat xarakteri daşıyır, çox vaxt uşaqların bilavasitə fəaliyyəti ilə əlaqələndirilmir; əgər uşağın böyüdüyü ailədə sağlam təlim-tərbiyə mühiti yaradılarsa, valideynlər uşağın harmonik inkişafına diqqət yetirərlərsə, uşaq bağçası ilə ailə məktəb arasında əlaqəli iş təşkil edilərsə, o zaman uşaqların intellektual inkişafı üçün imkan yaranar; əgər uşağın intellektual inkişafına stimul verən bütün vasitələrdən yaşa uyğun istifadə olunarsa, uşaqla tərbiyəçi-müəllim, uşaq bağçası ilə ailə arasında sıx əməkdaşlıq yaradılarsa, o zaman uşağın intellektual inkişafına nail olmaq mümkündür.

Paraqrafda deyilənlərdən və müşahidələrdən aşağıdakı qənaətə gəlmək mümkündür: Məktəbəqədər təhsil müəssisələrində uşaqların intellektual inkişafına nail olmaq üçün təlim prosesi səmərəli, pedaqoji prosesin tamlığı düzgün təşkil edilərsə, məktəbəqədər müəssisənin maddi-texniki bazası zənginləşdirilərsə, kadr potensialının nəzəri və metodik səviyyəsi artırılarsa, təhsilin məzmununa yeniliklər gətirilərsə, böyüyən nəslin inkişafı üçün əlverişli şərait yaradılarsa, uşaq bağçası ilə ailə arasında sıx əlaqə təmin edilərsə, uşaqların intellektual inkişafı, təhsilin səviyyəsi yüksələr.

Dissertasiyanın **II fəsli "Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının imkanları və yolları"** adlanır. Fəslin birinci paraqrafı "***Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının prinsipləri***" kimi müəyyənləşdirilmişdir. Məlum olduğu kimi, körpənin psixoloji baxımdan inkişafı duyğu üzvlərinin fəallığından çox asılıdır. Görmə, eşitmə, iybilmə, dadbilmə və toxunma vasitəsilə

uşaqda obyekt və hadisələrə maraq yaranır. Sadə hadisələri öyrənmək uşağın beynini inkişaf etdirir. İdrak proseslərinin inkişafı digər sahələrin (fiziki, sosial-emosional, estetik və yaradıcı) inkişafına da təsir göstərir.

Uşaqların inkişaf dinamikasını nəzərə alaraq onlara kömək göstərmək, yetkinləşmə ardıcıllığının prinsiplərini müəyyənləşdirmək lazım gəlir: 1. Uşağın inkişafı müəyyən ardıcıllıqla baş verir, bilik, bacarıq və qabiliyyətlərin təməlinin qoyulması ilə davam edir. 2. İnkişaf hər bir uşaqda müxtəlif istiqamət çərçivəsində, qeyri-bərabər surətdə baş verir. 3. İnkişaf təbiətdən qidalanan və cəmiyyətin təsiri nəticəsində baş verən mürəkkəb prosesdir. 4. İnkişaf kiçik yaşlı uşaqların oyunlarında özünü daha aydın surətdə göstərir. Oyunlar onlarda yalnız hərəkətlərin deyil, eyni zamanda sosial-emosional əlaqələrin yaranmasında, həmçinin idrakın inkişafında mühüm əhəmiyyətə malikdir. 5. İnkişaf sosial və mədəni sahələrə də təsir göstərir. Uşaqlar həm fiziki, həm də sosial təcrübələrinə əsaslanaraq dünyanı dərk etməyə can atırlar. Bu zaman onların ətraf aləmlə daha yaxın təmasda olmalarına, hər gün nə isə daha yeni şeylər öyrənmələrinə imkan yaranır.

Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafına nail olmaq üçün yeri gəldikdə dünyanın bütöv təşəkkül edilməsi, fəaliyyət, psixoloji komfort, mini-maksi, yaradıcılıq, fasiləsizlik, variativlik, rabitəlilik,başqasının müsbət cəhətlərindən istifadə etməklə özünün mənfi cəhətlərinin aradan qaldırılması kimi yardımçı prinsiplərdən də istifadə olunması məqsədəuyğundur.

Təlimin təşkili zamanı yuxarıda göstərilən prinsilərlə yanaşı bir çox prinsiplər də vardır ki, onlar əsasən sağlamlıq imkanları məhdud uşaqlarla iş prosesində tətbiq edilir: sistemlilik prinsipi; komplekslilik prinsipi; inkişaf prinsipi; nitq pozuntusunun uşağın başqa tərəfləri ilə qarşılıqlı əlaqəsi, araşdırma; fəal yanaşma; ontogenik prinsip; etio-patogenik prinsip (etialogiyanın və mexanizmin qeydiyyatı prinsipi);
nitq defektinin quruluşunun və pozulmanın simptomatikasının qeydiyyatı,dolayı yol prinsipi.

II fəslin ikinci paraqrafı ***"Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının modeli, metodları və priyomları"*** adlanır.

Dissertasiyada nəzərdən keçirilən problem baxımından məktəbəqədər yaşlı uşaqların intellektual inkişafını təmin etmək üçün ilk növbədə tərbiyəçilərin pedaqoji-psixoloji, hazırlıqlarının təmin olunması vacibdir. Bunun üçün hər bir tərbiyəçinin psixoloji-didaktik hazırlığı öyrənilməlidir. Onların fərdi nəzəri və praktik xüsusiyyətləri uşaqlara çox güclü təsir göstərir. Bu xüsusiyyətləri öyrənən rəhbər işçilər, tədqiqatçılar tərbiyəçilərin xüsusiyyətlərindəki mənfi cəhətləri asanlıqla aradan qaldıra bilirlər. Bununla onların xüsusiyyətlərində təsadüf edilən nöqsanların uşaqların tərbiyəsinə, intellektual inkişafına mənfi təsirinin qarşısı alınır.

Təlim metodları pedaqoqun qarşılıqlı əlaqəli fəaliyyəti zamanı təhsilalanlara verdiyi qaydaya salınmış, sistemləşdirilmiş öyrədilənlərin yolu kimi də başa düşülür. Hər bir təlim metodu ayrı-ayrı elementlərdən təşkil olunmuşdur. Bu elementlər priyom (tərz) adlanır. Tərbiyəçi təlim metodlarından yerli-yerində istifadə etməlidir. Təcrübə göstərir ki, hər hansı metoddan eyni cür istifadə olunması hər yerdə yaxşı nəticə vermir.

Tərbiyəçi metodlarla yanaşı priyomlardan istifadə qaydasını da öyrənməli, metod və priyomun növlərini və xarakterini fərqləndirməyi bacarmalıdır. Metoddan əsasən məşğələ boyu istifadə olunur, priyom isə 2-3 dəqiqə davam edir. Məşğələ boyu 3-4 priyomdan istifadə oluna bilər.

Alimlər müasir didaktikada təlim metodlarının müxtəlif təsnifatı mövcudluğundan bəhs edirlər. Prof. Ə.X.Paşayev və F.A.Rüstəmov, əsasən, aşağıdakı 5 növ təlim metoduna üstünlük vermişlər: praktik metodlar; əyani metodlar; söz metodları; kitabla iş metodları; videometodlar.

Tədqiqatdan görünür ki, təlim prosesində uşaqların belə canlı müzakirələrə cəlb edilməsi həm onların fəallığını, həm idrak müstəqilliyini, idraki yaradıcılığını artırır, həm də tolerant şüurunu zənginləşdirir, təfəkkürünü inkişaf etdirir.

Uşaqların intellektual inkişafını təmin etmək üçün tərbiyəçinin elmi-nəzəri və praktik hazırlığı da zəruridir. Tərbiyəçidən biologiya, riyaziyyat, Azərbaycan dili, ədəbiyyat fənlərinin nəzəri əsaslarını mükəmməl bilmək tələb olunur. O, bioloji qanunları bölgənin şəraiti

ilə, uşağın ətraf aləmdə gördükləri ilə əlaqələndirməyi bacarmalıdır. Tərbiyəçi ədəbi janrları (nağıl, hekayə, şeir, tapmaca, təmsil, layla, bayatı, saymaca və s.) fərqləndirməli və uşaqlara dəqiq öyrətməlidir. Onun nitqi yüksək inkişaf etməli, sözlərin yazılışı ilə tələffüzü (orfoqrafiya və orfoepiya) arasındakı fərqlərin sadə hallarını uşaqlara mənimsədə bilməlidir. O, aydın, canlı, emosional, obrazlı nitqə malik olmalı, danışığı ilə uşaqlara nümunə verməlidir.

II fəslin üçüncü paraqrafı ***"Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının forma və vasitələri"*** adlanır. Bu paraqrafda diqqətə çatdırılan məsələlər bunlardır: Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı idrak proseslərinin keyfiyyət göstəricisidir. Uşaqların intellektual səviyyələrinin inkişafı üçün məktəbəqədər yaş ən optimal dövr hesab edilir.

Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı bir neçə mərhələdə davam edir. Bu mərhələlərin daha dolğun inkişafı valideyn və tərbiyəçilərdən asılıdır. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafında nitqin inkişafı mühüm rol oynayır. 6 yaşlı uşağın nitqi məktəbəhazırlıq baxımından tam inkişaf etmiş olur, artıq o, ana dilinin incəliklərini mənimsəyir.

Uşaqların fəaliyyətini uzun müddət müşahidə etmişik. Qənaətimiz belədir ki, biliklərin qazanılması prosesində aşağıdakı şərtlər əsas götürülməlidir: 1. Uşaq onu əhatə edən maddi aləmdəki əşya və hadisələrlə bilavasitə əlaqədə olmalıdır. 2. Qazanılmış biliklər uşağın idrakı marağını və öyrənmə həvəsini artırmalıdır 3. Biliklər uşağın yaş səviyyəsinə  müvafiq və sistemli şəkildə öyrədilməlidir. 4. Biliklərin öyrənilməsi prosesində uşağın bacarıqları, vərdişləri və qabiliyyətləri inkişaf etdirilməlidir.

Uşaqların ətraf mühitdən aldıqları məlumatları müqayisə edərək belə bir nəticəyə gəlirik ki, məktəbəqədər yaşlı uşaqlar bu informasiyaları, əsasən, aşağıdakı vasitələrlə əldə edə bilərlər: 1. məişət, oyun, əmək, təlim fəaliyyəti prosesində; 2. mənəvi və maddi mədəniyyət vasitələri (müxtəlif oyunlar, rəsm əsərləri, memarlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət əşyaları, uşaq kitabları, elektron vasitələr və s.)ilə tanışlıq prosesində.  İntellektual inkişafın vasitələri onun müxtəlif formalarının inkişafına yol açır. Buna nail olmaq üçün bu prosesə erkən yaşlardan başlamaq lazımdır.

II fəslin dördüncü paraqrafında ***“Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafında valideynlərin rolu”*** barədə məlumat verilir. Məktəbəqədər yaşlı uşağın həm şəxsiyyət kimi, həm də intellektual cəhətdən formalaşmasında ailə mühüm rol oynayır. Eksperiment apardığımız məktəbəqədər təhsil müəssisələrində valideynlərlə sorğu zamanı bizi maraqlandıran bir çox məsələlərlə tanış olduq. Valideynlərdən aldığımız cavablar bizi tam qane etməsə də, aşkar olundu ki, müasir Azərbaycan cəmiyyətində ailələrin böyük bir qismi uşağın intellektual inkişafına xüsusi maraq göstərir. Bununla əlaqədar belə suallar yaranır: 1.Uşağın intellektual qabiliyyətlərinin inkişafına ailə necə təsir göstərir? 2. İntellektin inkişafına və məktəb yaşına çatmamış uşağın kreativliyinə ailə nə qədər kömək edə bilər?

Valideynlərə izah olundu ki, uşaqlarda qeyri-adi qavrama qabiliyyəti və dərketmə fəallığı mövcuddur. Onlar uşağın intellektual inkişafına erkən yaşdan başlamalı, bu keyfiyyətləri vaxtında inkişaf etdirməlidirlər. Alimlər hesab göstərirlər ki, yalnız ailənin bütövlüyü, yəni hər iki valideynin birlikdə yaşaması uşağın intellektual bacarıqlarının inkişafını müəyyən etmir. Burada əsas şərt ailənin psixoloji durumunun sağlam olmasıdır. Uşaq mehriban ata-anasının, bacı-qardaşının və nənə-babasının əhatəsində normal yetişə bilər. Ailəyə rəhbərlik və nəzarətin düzgün təşkili oradakı münasibətlərdə də özünü büruzə verir. Ailə başçısının düzgün idarəetmə qabiliyyəti digər üzvlər arasında qarşılıqlı xoş münasibətlər yaradır.

Fəslin beşinci paraqrafı ***eksperimentin təşkili, aparılması və nəticələrinə*** həsr olunub. Tədqiqat zamanı **işçi fərziyyəsi** müəyyənləşdirildi və eksperimentdən keçirildi. Həmin ***fərziyyəyə görə***, uşağın intellektual inkişafı aşağıdakı şərtlərə cavab verərsə, yaxşı nəticələr əldə edilə bilər: 1) uşaqların intellektual inkişafına istiqamətlənmiş təlim prosesinin məzmunu və məqsədi dəqiq əsaslandırılarsa; 2) uşaqların psixi xüsusiyyətləri və yaradıcı fəallıq göstərməyə marağını nəzərə alan inkişafetdirici mühit yaradılarsa; 3) təlim prosesi məktəbəqədər yaşlı uşağın intellektual inkişafının əsas şərti kimi humanistləşdirilərsə; 4) tərbiyəçilərin peşəkarlığının elmi-nəzəri səviyyəsi sistem baxımından məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının aparıcı şərti kimi formalaşdırılarsa; 5.

uşaqların obrazlı təxəyyülü, yaradıcı məntiqi təfəkkürü inkişaf etdirilərsə; 6. uşaq obyektləri müqayisə etməyi, əlamətlərinə görə ayırmağı, qruplaşdırmağı, ümumiləşdirməyi və nəticə çıxarmağı bacararsa, intellektual inkişafa yiyələnmiş olar.

Məktəbəqədər təhsilin kurikulumunun tələbləri baxımından uşaqların bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsinin müəyyənləşdirilməsi, standartlara uyğun təlim materialının nəzərdə tutulmuş meyarlarla qiymətləndirilməsi həyata keçirildi. Dəyişiklikləri izləmək məqsədilə eksperimental qrupun uşaqları daha fəal olmaqla, fikirlərini müstəqil və rabitəli şəkildə ifadə edə bilirlər. Bu qrupun uşaqları rabitəli nitqin və ünsiyyətin funksiyalarını sərbəst həyata keçirirlər, onlar dinləməyi bacarır, deyiləni anlayır, beləliklə konkret nəticə əldə olunur.

Kontrol qrupun uşaqlarında isə bu göstərici bir qədər aşağı səviyyədə idi. Onlar verilmiş suallara son dərəcə qısa cavab verdilər.

**Cədvəl 1**

**Uşaqların monoloji və dialoji nitqinin, həmçinin ünsiyyətinin xüsusiyyətləri**

| Suallar | kontrol qruplar | | eksperimental qruplar | |
|---|---|---|---|---|
| | nəfər | %-lə | nəfər | %-lə |
| Sən hansı nağılları bilirsən? | 50 | 32,68 | 103 | 67,32 |
| Hansı nağılı daha çox sevirsən? | 33 | 30,28 | 76 | 69,72 |
| Bu nağılı nə üçün çox sevirsən? | 21 | 24,42 | 65 | 75,58 |
| Bu nağılda kimə oxşamaq istəyirsən ? | 10 | 15,63 | 54 | 84,37 |
| Nə üçün ona oxşamaq istəyirsən? | 8 | 20,00 | 32 | 80,00 |
| Biz bu nağılı səhnələşdirsək sən hansı rolda çıxış etmək istəyərdin? | 4 | 13,33 | 26 | 86,67 |

*Qeyd*: Eksperimentdə 260 uşaq iştirak etdi. Suallar tərtib edilərkən, uşaqların yaş, fərdi, psixoloji xüsusiyyətləri nəzərə alındı.

Eksperimentin gedişində alınmış keyfiyyət və kəmiyyət nəticələri məktəbəqədər müəssisələrdə uşaqların intellektual inkişafının formalaşdırılması üzrə təqdim etdiyimiz metodikanın faydalılığını və səmərəliliyini göstərdi. Təcrübi-eksperimental fəaliyyət zamanı məktəbəqədər yaşlı uşaqların bilik və bacarıqları, uşaqların münasibətlərindəki pozitiv dəyişikliklər, məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçilərin hazırlıq səviyyələri, öz işlərində yeni metodlardan istifadə özünü göstərdi. Uşaqlar cansız təbiətdəki obyektlərin fərdi xüsusiyyətlərini qismən düzgün adlandırdılar. Cansız təbiətin obyektlərindən nə üçün istifadə olunması ilə bağlı suallara cavab verərkən çətinlik çəkdilər.

Eksperimentin yoxlayıcı mərhələsində uşaqlar arasında da sorğu keçirildi. Sorğunun nəticələri cədvəl 2-də öz əksini tapmışdır:

**Cədvəl 2**

**Məktəbəhazırlıq qrupunun uşaqları ilə cansız təbiətin obyektlərindən nə üçün istifadə olunması ilə bağlı aparılmış eksperimentin göstəriciləri**

| Suallar | kontrol qruplar | | eksperimental qruplar | |
|---|---|---|---|---|
| | məktəbəhazırlıq qrupu | | məktəbəhazırlıq qrupu | |
| | nəfər | %-lə | nəfər | %-lə |
| İnsanlar qumdan harada və nə üçün istifadə edirlər? | 53 | 35,33 | 97 | 64,67 |
| Sən qumun hansı xüsusiyyətlərini bilirsən? | 62 | 41,33 | 88 | 58,67 |
| Sən daşların hansı xüsusiyyətlərini bilirsən? | 31 | 20,67 | 119 | 79,33 |
| İnsanlar daşdan harada və nə üçün istifadə edirlər? | 59 | 39,93 | 91 | 60,67 |
| Suyun hansı xüsusiyyətlərini bilirsən? | 38 | 25,33 | 112 | 74,67 |
| Sudan harada və nə üçün istifadə olunur? | 65 | 43,33 | 85 | 56,67 |
| Sən hava haqqında nə bilirsən? | 57 | 38,00 | 93 | 62 |

*Qeyd*: Eksperimentdə 150 nəfər məktəbəhazırlıq qrupunun uşağı iştirak etdi.

Uşaqların cansız təbiətin fərqli xüsusiyyətləri barədə biliklərinin səviyyəsi qiymətləndirildi. Kontrol qruplarda uşaqların cansız təbiət və onun xüsusiyyətləri barədə biliklərinin səviyyəsi aşağıdır. Hava, su, qum, daş və digər obyektlərin keyfiyyəti barədə bilikləri məhduddur. Yalnız onlardan harada istifadə olunması barədə cüzi anlayışları vardır. Uşaqlar əşyaların əsas xüsusiyyətlərini çətinliklə müəyyən edir, onları qruplaşdırarkən səhvə yol verirlər.

Eksperimental qruplarda nəticələr daha uğurlu oldu. Uşaqların aşağıdakı keyfiyyətlərə yiyələndikləri aşkara çıxdı: problemi görməyi, onu üzə çıxarmağı; məqsəd qoymağı; problemləri həll etməyi; obyekti və onun xüsusiyyətlərini təhlil etməyi; mövcud əlamətləri, səbəb-nəticə əlaqələrini aşkara çıxarmağı; müxtəlif faktları müqayisə etməyi, fərziyyələr irəli sürməyi, müstəqil fəaliyyət zamanı vasitə və materialları seçməyi; tədqiqat aparmağı; müəyyən nəticəyə gəlməyi.

Alınan nəticələr tərbiyəçiyə imkan verir ki, psixi proseslərin xüsusiyyətlərini, pedaqoji vərdişlərin səviyyəsini (sadə riyazi təsəvvürlər, savad təliminə hazırlıq, öz fikirlərini, ümumi məlumatının göstəricisini düzgün ifadə etmək), emosional sahənin xüsusiyyətlərini müəyyənləşdirə bilsin, qarşılıqlı fəaliyyət üçün metodları seçməyi və hər bir uşağın stimullaşdırılmasını təmin etməyi bacarsın.

Aparılmış tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas vermişdir:

1. Müəyyən edilmişdir ki, məktəbəqədər təhsil müəssisələrində uşaqların intellektual hazırlığının təşkili onların inkişafında, mükəmməl təhsilə hazırlanmalarında, ictimai həyatda yaradıcı fəaliyyətə cəlb olunmalarında mühüm rol oynayır.

2.Tədqiqatdan görünür ki, məktəbəqədər təhsil müəssisələrində uşaqların intellektual inkişafının təmin olunması üçün təlimin səmərəli təşkili tərbiyəçi-müəllimin peşəkarlığından xeyli dərəcədə asılıdır. Pedaqoji prosesin təşkili, təlim - tərbiyənin səmərəliliyinin və nəticəliliyinin yüksəldilməsinin təmin olunması üçün yeni yanaşmalardan, texnologiyalardan istifadə, bu işin elmi, pedaqoji, psixoloji, metodik əsaslarının işlənməsini aktual bir problem kimi ön plana çəkir.

3. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlərin bir qismi uşaqların intellektual inkişafı üzrə işin məqsədini düzgün müəyyənləşdirməkdə, bunu aydın əks etdirməkdə çətinlik çəkir, gərgin fəaliyyət nəticəsində müəyyən bilik bacarıq əldə edilsə də, mövzunun mahiyyətindən irəli gələn vəzifələri yerinə yetirə bilmirlər. Bu səbəbdən məktəbəqədər təhsilin sonunda intellektual hazırlıq baxımından uşaqların səviyyələri qənaətbəxş olmur.

4. Tədqiqat sübut etdi ki, intellektual cəhətdən inkişaf etmiş məktəbəqədər yaşlı uşaqlar yeni materialı, onun mahiyyətini dərk edir, möhkəm yadda saxlayır, öz güclərinə inanır və iş təcrübəsinin göstərdiyi kimi, onlarda oxumaq arzusu daha güclü olur.

5. Məktəb təliminə intellektual hazırlığın göstəricisi təfəkkür prosesinin bütövlüyü, təhliletmə bacarığı və yaradıcı komponentlərin birliyi, bununla da uşaq düşüncəsinin özünü inkişaf etdirməsidir. Belə özünü inkişafetdirmə o halda baş verir ki, təfəkkürün hər addımı bir tərəfdən nəyi isə aydınlaşdırır, möhkəm biliklər yaradır, beləliklə də yeni biliklərin formalaşması və inkişafının əsası olur. Uşaqların idrak fəallığının inkişafını, biliyə və fəaliyyətə yaradıcı yanaşmalarını məktəbəhazırlıq dövründə əhəmiyyətli cəhət hesab etmək mümkündür.

6. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafını təmin etmək üçün müəssisənin maddi-texniki bazası mükəmməl olmalı, kadr potensialının səviyyəsi artırılmalı, təlim-tərbiyənin məzmununda yeniliklər edilməli, uşağın inkişafı və yaradıcı fəaliyyəti üçün optimal şərait yaradılmalıdır.

7. Məktəbəqədər yaş dövründə uşağın intellektual inkişafının göstəricisi dərketmənin və nitqin inkişafı qabiliyyətlərin formalaşması, biliyin genişlənməsi kimi parametrlərə əsasən şərtləndirilir.

8. Eksperimental işin nəticələri göstərdi ki, hazırlanmış metodikanın tətbiqi pedaqoji işçilərin fəaliyyətinin inkişafına, pedaqoji prosesin səmərəli təşkilinə xidmət edir. O, tərbiyəçi-müəllimlərin fəaliyyətinin inkişafını pedaqoji-psixoloji prosesin səmərəliliyinin yüksəldiyini təsdiq etmişdir.

9. Məktəbəqədər təhsil müəssisələrində uşaqların intellektual inkişafının təmin edilməsi sahəsində məqsədyönlü, planlı, sistemli və

fasiləsizi iş, bu problemə dair tələbatların öyrənilməsi, onlarda pedaqoji bacarıqların formalaşdırılması və inkişafı məktəbdə səmərəli təlimin təşkili üçün şərt kimi qiymətləndirilməlidir.

10. Tədqiqat göstərdi ki, uşaqların intellektual inkişafı üzrə işin müasir tələblərə cavab verməməsinin əsas səbəbi, pedaqoji işi həyata keçirən işçilərin bir qisminin bu problemlə əlaqədar minimum bilik və bacarıqlara malik olmasıdır.

11. Məktəbəqədər yaşlı uşaqların fəaliyyətləri, əsasən, oyunla əlaqədar olduğundan intellektual xarakterli məşğələlər müxtəlif oyunlar vasitəsilə təşkil edilməlidir.

12. Məktəbəqədər yaşlı uşaqların intellektinin inkişaf etdirilməsi onların düzgün tərbiyə olunmalarında mühüm rol oynayır. Bu prosesdə uşaqlarda öz əqli keyfiyyətlərinə inam, çalışmağın yüksək keyfiyyət əldə etməklə nəticələnməsi, tərbiyəçi-müəllimə, valideynə, yoldaşlarına hörmət, köməyə ehtiyacı olanlara yardım göstərmək, kollektivdə normal ünsiyyəti gözləmək kimi xarakterik xüsusiyyətləri formalaşdırılmalıdır.

Tədqiqatla bağlı aşağıdakı **təkliflər** irəli sürülmüşdür:

1. Bütün bunları nəzərə alaraq, pedaqoji təmayüllü ali və orta ixtisas məktəblərində məktəbəqədər müəssisələr üçün kadrların nəzəri, pedaqoji-psixoloji cəhətdən mükəmməl hazırlanmaları diqqət mərkəzində olmalıdır.

2. Məktəbəqədər təhsil müəssisələrində baş verən yeniliklərlə əlaqədar tədqiqatların aparılması, uşaqların intellektual hazırlığının inkişafı prosesi üzrə axtarışların gücləndirilməsi daim diqqəti cəlb etməlidir.

3. Məktəbəqədər təhsil müəssisələrində uşaqların inkişafına, o cümlədən intellektual inkişafının təmin olunmasına xidmət edən maddi-texniki bazanın, əşyavi vəsait və didaktik materialların, tərbiyəçi-müəllimlər üçün metodik vəsaitlərin praktik istiqamətinin gücləndirilməsi və inkişafetdirici mühitin təşkilinin təmin olunması zəruridir.

4. Məktəbəqədər təhsil müəssisələrində uşaqların intellektual hazırlıqlarının inkişafı ilə əlaqədar vaxtaşırı monitorinqlər keçirilməli, onların həcmi, həmçinin tərbiyəçi-müəllimlərin fəaliyyətinin təhlil olunub qiymətləndirilməsi məqsədəuyğundur.

Dissertasiyanın məzmunu, əsas elmi ideyaları və alınan nəticələr iddiaçının çap etdirdiyi aşağıdakı **əsərlərdə** öz əksini tapmışdır:

1. Məktəbəqədər yaşlı uşaqların müxtəlif fəaliyyət növlərində eksperimentin aparılması // - Bakı: Azərbaycan məktəbi, -2011. № 2,- s. 92-95
2. Nitqi qüsurlu uşaqların səs təhlilinə hazırlanması // -Bakı: Məktəbəqədər və ibtidai təhsil, -2011. № 3, -s. 106-112
3. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı // -Bakı: Məktəbəqədər və İbtidai təhsil, −2014. № 1, -39-41 s.
4. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafında nitqin rolu // -Bakı: Məktəbəqədər və ibtidai təhsil, − 2014. -№ 3,− s. 31-34
5. Məktəbəqədər tərbiyə müəssisələrində uşaqların məkan və zaman münasibətləri ilə tanışlığı prosesində əyani modelləşmə qabiliyyətinin formalaşması // -Bakı: Məktəbəqədər və ibtidai təhsil, -2015. № 3, -s. 38-41
6. Развитие речи как одно из средств интеллектуального развития //-Казахстан: Хабаршы вестник, Алматы. Серия Педагогические науки, -2015. № 4, - s. 298-302
7. Məktəbəqədər yaşlı uşaqların maraq dairəsinin onların intellektual inkişafına təsiri // -Bakı: Məktəbəqədər və ibtidai təhsil, -2016. № 1, -s. 28-39
8. Uşaqların intellektual inkişafının prinsipləri //-Bakı: Azərbaycan məktəbi, -2016. № 3, -s. 27-31
9. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı probleminin pedaqoji, psixoloji və metodik ədəbiyyatda qoyuluşu //-Bakı: Məktəbəqədər və ibtidai təhsil, -2016. № 3, -s. 27-32
10. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı probleminin təlim-tərbiyə proqramlarında qoyuluşu // -Bakı: ARTİ-nin Elmi əsərləri, -2016. № 2, -s. 205-209
11. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı // -Bakı: Məktəbəqədər və ibtidai təhsil, -2017. № 1, -s. 23-29
12. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafında valideynlərin rolu // -Bakı: Məktəbəqədər və ibtidai təhsil, -2017. № 3, -s. 37-41

13. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının pedaqoji-psixoloji əsasları // -Bakı: Məktəbəqədər və ibtidai təhsil jurnalı, −2019. № 4, s. 85-94
14. Məktəbəqədər yaşlı uşaqların mənəvi-intellektual inkişafı // ARTPİ-nin "Təhsildə mənəvi-əxlaqi dəyərlər: hormonik şəxsiyyətin inkişafı" adlı mövzusunda beynəlxalq elmi konfransın materialları, -Bakı, − 5-6 dekabr, -2014. -s. 108-110
15. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafında sensor tərbiyənin rolu // "Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları" adlı beynəlxalq elmi konfransın materialları, −Naxçıvan, 16-17 dekabr, -2014. -s. 255-256
16. Формирование способности наглядного моделирования детей дошкольного возраста в процессе интеллектуального развития // II Международный научно-практической конферен-ции, -Пятигорск, − 23-24 апреля, − 2015, -s. 280-284
17. Интеллектуальное развитие детей 3-4 лет //İnternational scientific review of the problems and prospests of modern science and education, −Boston, USA:− 2020, −February 18-19, − s. 63-65
18. Məntiqi təfəkkürün inkişafı. Didaktika / L.K.Cəfərova -Bakı, -2014. -63 s.
19. Nitqi qüsurlu uşaqlar üçün məktəbəqədər xüsusi təhsil müəssisələrinin proqramları. Proqram / L.H.İmanova -Bakı: ADPU, -2008. -76 s.
20. Uşaq bağçalarında gəzintilərin təşkili: Metodik vəsait./ L.K.Cəfərova -Bakı: Apostrof, -2011. -80 s.
21. Uşaq bağçasının müdirinin stolüstü kitabı / L.K.Cəfərova − Bakı: Apostrof, −2011. − 345 s.
22. Müntəxəbat (Böyük qruplar üçün) / L.K.Cəfərova −Bakı: Bakı uşaq nəşriyyatı, -2021. -144 s.

Dissertasiyanın müdafiəsi **"29" dekabr 2021-ci il tarixdə saat 12$^{00}$ da** Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15. Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68 Az1000,

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **"27" noyabr 2021-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:26.11.2021
Kağızın formatı: 60x84  1/16
Həcm: 40417
Tiraj:100

“Füyuzat” nəşriyyatının mətbəəsində çap olunmuşdur.